LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

Vətəndaş cəmiyyəti subyektlərinin iştirakçılığının və potensialının artırılması vasitəsilə ŞT-də seçki proseslərində hesabatlılığın təşviqi (ProElect)



İcra müddəti: 01.04.2024 - 31.03.2028

ŞT ölkələri:

Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

Aİ-nin maliyyə yardımı: € 5 999 731

Ümumi büdcə: € 6 673 781

İcraçı təşkilat(lar):

Transatlantic Foundation (TF), IREX EUROPE (Equal Rights & Independent Media (ERIM)

Layihənin təsviri:

Bu layihə Transatlantik Fond (TF) və "Bərabər Hüquqlar və Müstəqil Media" (ERIM) təşkilatının birgə təşəbbüsü olaraq Şərq Tərəfdaşlığı ölkələrində həqiqətən fəaliyyət göstərən plüralizmi, iştirakçılığı və təmsilçi demokratiyanı təşviq etmək məqsədi daşıyır. Layihə seçkilərin monitorinqi və demokratik hesabatlılıq mexanizmlərinin təşviqi sahəsində vətəndaş cəmiyyəti təşkilatlarının (VCT-lər) üzləşdiyi əsas çətinlikləri əhatə edir.
Təşəbbüs seçkilərin monitorinqi və demokratik hesabatlılığın təşviqi prosesində VCT-lərin potensialının və iştirakının gücləndirilməsini hədəfləyir. Əsas maraqlı tərəflərə vətəndaş cəmiyyəti təşkilatları, vətəndaş təşəbbüsləri, vətəndaş qrupları (o cümlədən gənclər, qadınlar və həssas əhali qrupları), müstəqil media qurumları və beyin mərkəzləri daxildir. Ümumi məqsəd Şərq Qonşuluğu regionundakı vətəndaş cəmiyyəti subyektlərinin seçkilərin monitorinqi və demokratik hesabatlılıq mexanizmlərinin təşviqi sahəsində fəal iştirakını, bacarıqlarını və biliklərini təmin etməkdir.

Gözlənilən nəticələr:

• Şərq Qonşuluğu regionundakı vətəndaş cəmiyyəti subyektlərinin seçkilərin monitorinqi və demokratik hesabatlılıq mexanizmlərinin təşviqi sahəsində fəal iştirakı, bacarıq və biliklərinin təmin edilməsi.
• Vətəndaş cəmiyyəti subyektlərinin və digər müvafiq tərəflərin ŞT ölkələrində seçkilərin monitorinqi və müşahidəsi sahəsində mövcud maneələr barədə anlayışının artırılması.
• Şərq Tərəfdaşlığı ölkələrindəki VCT-lərin müstəqil və etibarlı şəkildə seçkilərin müşahidəsini aparmaq, habelə tam seçki dövrü ərzində (seçkiqabağı dövr, seçki günü və

seçkidən sonrakı dövr) daha geniş nəzarət fəaliyyəti həyata keçirmək üçün daha böyük potensiala malik olması;
• Seçkilərin legitimliyinə və seçki nəticələrinin qəbul edilməsinə təsir göstərə biləcək müxtəlif növ qanun pozuntuları barədə ictimai məlumatlılığın artırılması.